

■ Aygün Süleymanova
*teatrşünas*



# Köhnə yeni ilə "hesab at..."

**Təbii ki, bu yeni, 2017-ci ilin ilk yazısı münasibətilə özümü, sağ-salamat bu yazını oxuduNuğunuz üçün sizi və hələ də yazılmağa sözü olduğu üçün teatr əhlini təbrik edirəm. Yəqin ki, geridə buraxdığımız ildən yeni ilə hesab atmaq qərarımı siz də alqışlayırsınız. Zatən yeni ilin ilk yazısı başqa nə ola bilərdi ki?**

İstəyirəm sizin qarşınızda teatrlarımızı hesaba çəkim, nə etdilər, nə etmək istədilər və sonucda nəyi edə bildilər. Neçə illərdir ki, teatr deyiləndə ilk ağlımıza gələn Azdrama (Akademik Milli Dram Teatrı) olur. Niyə və nə üçünü məndən başqa hamı da bildiyi üçün keçək yaradıcılığa... Ölkəmizin mərkəzi teatrının 2016-cı il devizi "klassika... şedevr əsərlər... unudulmayan incilər" olub desək, yanılmarıq. Bu sırada Cəlil Məmmədquluzadənin "Ölülər", Nikolay Qoqolun "Müfəttiş", Cəfər Cabbarlının "Almaz" və s. şedevrlər ana teatrın sözünü demiş və sözünü demək istəyən rejissorları tərəfindən səhnələşdirildi. "Ölülər" Azərbaycan tamaşaçısına Akademik teatrdan yenə nələrsə dedi və ya demək istədi. Xadırladım ki, bu tamaşanın rejissoru və müəllifi xalq artisti Azər Paşa Nemətov, rejissorları isə Anar Sadıqov və Əlif Cahangirli idi. Klassikaya davam olaraq gənc (artıq gənc də demək olmur) rejissor Mikayıl Mikayılovun quruluşunda Qoqolun "Müfəttiş" əsəri səhnələşdirildi. İlin teatr prosesindən danışarkən, deməmək qəbahət olardı ki, ilin əsas teatr olayı xalq artisti Fuad Poladovun Akademik Milli Dram Teatrından öz istəyi ilə getməsi oldu. Bu hadisə köhnə ildə teatrlarımızı dillərdə əzbər etdi. Və sonucda bu olay məncə, ilin tamaşası, üzr istəyirəm, ilin hadisəsi kimi yadda qaldı.

Öz növbəsində Gənc Tamaşaçılar Teatrı "Qohumlar" vasitəsilə əlaqələri möhkəmləndirmək, yeni qohumlar tapmaq işini davam etdirdilər. Bu sırada Kalmık Respublikası ön cərgədədir. Gənc Tamaşaçılar Teatrı B.Basanqovun "Təəccüb doğuran hadisə" əsərinin motivləri əsasında Vera Şuqrayeva və Əli Əmirlinin düzüb qoşduğu, Kalmık Respublikasının əməkdar incəsənət xadimi rejissor Boris Manjiyevin quruluşunda "Qohumlar" tamaşasını demək olar ki, böyük maraqla təqdim etdi.

Gənc Tamaşaçılar Teatrı üçün ilin ən ümdə hadisəsi isə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında hazırlanan eyniadlı tamaşa oldu. Tamaşanın quruluşçu rejissoru və səhnələşdirmə müəllifi əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı Elnur Axundov, musiqi tərtibatçısı Həmid Kazımzadə idi.

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının ən yadda qalan hadisəsi məşhur Mayakovski teatrının qastrol səfəri oldu. Moskvalı teatr sənətçiləri dahi rus yazıçısı Nikolay Vasilyeviç Qoqolun "Evlənmə" pyesi əsasında Rusiya Federasiyasının Xalq artisti (2005) Serqey Arçibaşevin quruluş verdiyi eyniadlı tamaşanı və iki litvalı fenomen-dramaturq Mariyus İvaşkaviçyus və rejissor Mindauqas Karbaukisun birlikdə hazırladığı "Rus romanı"nı böyük məsuliyyət və tamaşaçıya hörmətlə bakılılara təqdim etdilər.

İlin sonunda Rus Dram Teatrı "Əli və Nino" tamaşası ilə məhsuldar teatr mövsümünü uğurla başa çatdırdı. Qurban Səidin məşhur "Əli və Nino" romanı əsasında qoyulan yeni tamaşanın səhnə variantını Valentina Reznikova qələmə almışdı. Ötən əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələr, Bakının o dövrdəki mədəni və ictimai həyatı fonunda azərbaycanlı əsilzadə Əli və gürcü knyaginyası Ninonun məhəbbətindən bəhs edən tamaşaya rejissor İlqar Safat quruluş vermişdi.



M.F.Axundzadə adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Bəstəkar Fərəc Qarayevin bir aktdan ibarət "Qobustan kölgələri" baletinin və Cüzeppe Verdinin "Bal-maskarad" adlı konserti əsasında operasının premyeraları keçirildi.

2016-cı ildə A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı 85 yaşını qeyd etdi, qocaman kuklasını sevə-sevə təqdim etdi. Teatr bu mövsümdə bir neçə yeni tamaşaya imza atdı ki, bunlardan rus uşaq yazıçısı Vladimir İlyuxovun fransız yazıçısı Şarl Perronun "Yatmış gözəl" nağılından bəhrələnərək qələmə aldığı ikihissəli "Oyaq gözəl" pyesi əsasında hazırlanan eyniadlı tamaşa (rejissoru Anar Məmmədov), balacaların sevimli nağıllarının müəllifi Şarl Perronun məşhur "Qırmızı papaq" əsərinin əsasında qoyulan tamaşa (rejissoru Qurban Məsimov) yaddaqalan oldu.

Kukla Teatrından söz açmışkən, Teatrın içinə sığan (lakin dışına sığmayan) "Yuğ" teatrından da danışaq. "Yuğ" teatrının yetirməsi rejissor Mikayıl Mikayılov Vladimir Klimenkonun "Medeya Teatrı" pyesi əsasında səhnələşdirdiyi "Medeya" və teatrın baş rejissoru Gümrah Ömərin hazırladığı "Rindü-şeyda" tamaşaları ilin premyeraları və uğurlu işləri kimi yadda qaldı.

Azərbaycan Dövlət Pantomima Teatrında ötən il Bəxtiyar Xanızadənin "Adagio" (poetik düşüncə) tamaşasının premyerası baş tutdu. Tamaşanın quruluşçu rejissoru Bəxtiyar Xanızadə, quruluşçu rəssam və musiqi tərtibatçısı Nargilə Qəribova, rəqslərin quruluşçusu Elnur İsmayılovdur. Rollarda Nargilə Qəribova, Bəhruz Əhmədli, Nurlan Rüstəmov, Elnur İsmayılov və digərləri çıxış edirdi.

Dövlət teatrları ilə yanaşı, qeyri-dövlət teatrları da fəaliyyətlərini ilə davam etmiş oldular. "Mənim teatrım"ın quruluşunda "Maraqlı fiqur və ya siçan qadın" adlanan tamaşanın rejissoru, əməkdar artist Vidadi Həsənov, tamaşanın bəstəkarı Azər Hacıəsgərli, əsas qəhrəmanı isə Qadın rolunda aktrisa Zümrüd Qasımova idi. Eləcə də, "Ado" teatrı fransız dramaturq Bernard Mari Koltesin "Meşələrin astanasında gecə" pyesinin motivləri əsasında teatrının aktrisası Elza Furtadonun quruluş verdiyi və Elmin Bədəlovun tənha performans sərgilədiyi "Yağış, yağış, yağış" monotamaşasını təqdim etdi.

Bakıdan kənara çıxmamış bu teatrların ata ocağı olan və 2017-ci ildə yubileyini qeyd edecək Teatr Xadimləri İttifaqından da söz açaq. İttifaq köhnə ildə də ənənəsinə sadiq qaldı. Azərbaycan Teatr Xadimləri İttifaqında Əliheydər Ələkbərovun 100, Əliabbas Qədirovun 70, Nəriman Həsənzadənin 85, Elçin Məmmədovun 70, Yaşar Nurinin 65, görkəmli aktrisa, SSRİ xalq artisti Mərziyə Davudovanın 115 illik yubileyinə həsr olunmuş tədbirlər, eləcə də Azərbaycan teatr və kino mədəniyyətinin görkəmli sənətkarı, xalq artisti Nəsibə Zeynalovanın 100 illik yubileyi münasibətilə "Ömrün səhifələri" adlı kitabının təqdimatı keçirildi. Qeyd edim ki, kitabın müəllifi Aidə Qafarova, rus və inglis dilinə tərcümə edən isə Tərlan Rəsulzadədir.

İlin ən böyük teatr tədbiri isə 7-8 noyabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Teatr Xadimləri İttifaqı, Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə "Multikulturalizm və teatr" mövzusunda keçirilən IV Bakı Beynəlxalq Teatr Konfransı oldu.

Bu sadaladığım işlər min bir əziyyətin sonucudur. Doğrudan da hesabat vermək daha asandır. Ancaq saatlarla məşq edən, min bir işin öhdəsindən gələn aktyorlarımızın, rejissorlarımızın əməyini, zəhmətini unutmaq olmaz. Hətta oyununu, işinin keyfiyyətini nəzərə almasaq belə ... Görə-görə yaşayırıq, yaşaya-yaşaya görürük. Mən də bu sözlərlə keçən ilə bir hesab atmış oldum, hesabatımıza isə hələ çox illər var...

## "Stullar" tamaşası yenidən nümayiş olunacaq

**Yanvarın 16-da Azərbaycan Teatr Xadimləri İttifaqının Mustafa Mərdanov adına "Zəfər" studiyasının səhnəsində Ejen İoneskonun "Stullar" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunacaq.**



Teatr Xadimləri İttifaqından bildirilib ki, üç personajın rol aldığı səhnə əsərinə rejissor İlkin Mehdiyev quruluş verib. Faciə janrında olan tamaşada rolları xalq artistləri Rafiq Əzimov, Hacı İsmayılov və Həmidə Ömərova ifa edirlər.

Bədii rəhbəri Xalq Artisti Azərpaşa Nemətovun olduğu tamaşada iki uğursuz insanın həyat tərzi, yaşam tarixçəsi canlanır. Əsərin qəhrəmanı olan iki qarı və qoca reallıqda yaşamır, uğursuz həyatlarına rəng qatmaq istəyində çırpınırlar. Tamaşa davam etdiyi müddətdə səhnədə saysız-hesabsız stullar dayanır. Heç kəsin əyləşmədiyi stullar bir predmetə deyil, tamaşanın qəhrəmanına çevrilir. Tamaşanı canlı edən də məhz bu stullardır. Tənhalıqlarını unutmaq üçün qarı və qoca bir oyun fikirləşərək hər gün evlərinə xəyali qonaqlar dəvət edirlər.

Maraqlı səhnə əsərinin əsas məğzini insanın həyatdan bezməsi və tənha otaqda qalan iki yaşlı adamın son vidası təşkil edir.